**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MİLLİ VOKAL SƏNƏTİNƏ AVROPA MƏKTƏBLƏRİNİN TƏSİRİ

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Rüfət Valeh oğlu Piriyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>**Ülviyyə İsmayıl qızı İmanova** |
| Rəsmi opponentlər: | sənətşünaslıq doktoru, professor<br>**Sevda Firuddin qızı Qurbanəliyeva** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Leyla Zəki qızı Quliyeva** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**İlham İslam oğlu Nəzərov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədr müavini: ____________ | sənətşünaslıq doktoru, professor<br>**Tariyel Aydın oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | sənətşünaslıq doktoru, dosent<br>**Leyla Ramiz qızı Zöhrabova** |
| Elmi seminarın sədri: ____________ | sənətşünaslıq doktoru, dosent<br>**Aytac Elxan qızı Rəhimova** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli musiqimizin bir sərvəti kimi qəbul olunan Azərbaycan vokal ifaçılıq sənəti janr, məzmun və musiqi dili baxımından öz zənginliyi ilə diqqəti cəlb edir. Bu sənət, əsrlər boyu inkişaf edərək, müasir dövrümüzdə elmi əsaslarla təhlil edilə bilən, peşəkar və sistemli bir sahəyə çevrilmişdir. Azərbaycan vokal ifaçılığının inkişafının XX əsrdəki mərhələsi, xüsusilə Avropa vokal məktəblərinin milli vokal sənətimizə təsiri ilə səciyyələndirilir. Bu təsir nəticəsində ölkəmizdə akademik prinsiplərə malik vokal ifaçılığı təşəkkül tapmışdır.

Qeyd etmək lazımdır ki, Avropa məktəbləri Azərbaycanla yanaşı, dünyanın müxtəlif ölkələrində vokal sənətinin formalaşması və inkişafına mühüm təsir göstərmişdir. Buna görə də, vokal məktəblərinin təsiri, qarşılıqlı əlaqələri və inkişafı dünya alimlərinin diqqət mərkəzində olmuş və aktuallığını qoruyan bir araşdırma mövzusuna çevrilmişdir. Onlardan vokal ifaçılıq sənətinin elmini bilən ifaçı-pedaqoq alimlərin araşdırmaları xüsusilə seçilir.

Dünyada olduğu kimi Azərbaycan musiqişünaslığında da Avropa musiqi ənənələrinin təsiri ilə formalaşmış akademik vokal ifaçılıq sənətinin tarixi və nəzəri baxımdan ətraflı şəkildə araşdırılmasına böyük ehtiyac olduğu vurğulanmalıdır.

Təəssüf ki, ölkəmizdə Avropa ənənəli vokal sənətini, onun metodikasını mənimsəmiş tədqiqatçıların sayı çox olmadığı üçün elmin bu sahəsi xüsusən ifaçılıq nöqteyi-nəzərindən dissertasiya səviyyəsində az tədqiq edilmişdir. Odur ki, **“Azərbaycan milli vokal sənətinə Avropa məktəblərinin təsiri”** mövzusunun tədqiqata cəlb edilməsi yüksək aktuallığa və xüsusi elmi dəyərə malikdir. Burada Milli vokal sənətinin inkişafı prosesində Avropa məktəblərinin təsiri müfəssəl şəkildə tədqiq olunur. Tədqiqatın məhz vokal ifaçılığı nöqteyi-nəzərindən aparılması isə yazılmış dissertasiyanın elmi dəyərini bir qədər də artırır.

Azərbaycan vokal ifaçılıq sənətinin inkişafı həm də müxtəlif xalqların mədəniyyətlərinin qarşılıqlı əlaqəsi, inteqrasiyası, yəni multikultural münasibətlərin inkişafı ilə bilavasitə bağlı olmuşdur. Tərəfimizdən təqdim olunan bu tədqiqat işində Avropa məktəblərinin

Azərbaycan milli vokal sənətinə olan təsirinin multikultural münasibətlər baxımından da araşdırılması mövzunun aktuallığını şərtləndirən amillər sırasındadır. Bu baxımdan XX əsrlə yanaşı, həm də müasir dövrümüzdə ölkəmizin mədəni həyatında baş verən mühüm yeniliklərin təhlil edilməsi xüsusi əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, son 25 il ərzində bir sıra azərbaycanlı vokal ifaçıları Avropada təhsil almış və ölkəmizi dünyada təmsil edən peşəkar opera müğənnilərinə çevrilmişdirlər. Bu dövrdə akademik vokal ifaçılığının fərqli və nisbətən yeni bir istiqaməti olan, İngiltərədə formalaşmış kontratenor səs tembri ilə oxuma üslubunun Azərbaycan milli vokal sənətinə inteqrasiyası, XXI əsr Azərbaycan akademik vokal sənətinin ən müasir inkişaf istiqamətlərindəndir. Belə olan halda ölkəmizdə kontratenor tembri ilə ifaçılığın xüsusiyyətlərinin peşəkarlıq cəhətdən açıqlanması zərurəti yaranır. Bu məqam da Azərbaycan milli vokal sənətinə Avropa məktəblərinin təsirinin araşdırılmasının aktuallığının göstəricisidir.

Mövzunun aktuallığını şərtləndirən digər bir amil, dissertasiyada not nümunələri, həmçinin opera mağənnilərinin ifaları əsasında bir sıra Avropa və Azərbaycan bəstəkarlarının əsərlərinin vokal təhlillərinin təqdim olunmasıdır. Aparılan təhlillər Avropa məktəblərinin Azərbaycan milli vokal sənətinə olan təsirinin müəyyən edilməsi baxımından çox əhəmiyyətlidir. Tədqiqatda dövrlərə və məktəblərə uyğun vokal ifaçılıq üslubları, həm də həmin üslubların Azərbaycan akademik vokal ifaçıları üçün mütləqiliyi, əlverişli olması analitik şəkildə araşdırılmışdır. Eyni zamanda, ənənəvi Azərbaycan və Avropa vokal ifaçılıq prinsiplərinin vəhdətli tətbiqi təhlil edilərək, hər iki ənənənin qarşılıqlı əlaqəsi və bir-birini tamamlayan xüsusiyyətləri üzərində durulmuşdur. Göstərilən yanaşma, ənənəvi Azərbaycan və Avropa oxuma üsullarının vokal ifaçılığı nöqteyi-nəzərindən necə sintez olunduğunu müəyyən etməyə imkan verir. Nəticə etibarilə, bu araşdırma, Azərbaycan akademik vokal sənətinin inkişafını Avropa vokal məktəbləri ilə əlaqələndirərək, elmi və praktik baxımdan yeni perspektivlər təqdim edir.

Beləliklə, tədqiqat işi milli akademik vokal sənətinin həm ifaçılıq, həm də bir elm sahəsi kimi inkişafına, eyni zamanda pedaqoji-metodik istiqamətlərin Azərbaycan dilində olan elmi-nəzəri və praktik əhəmiyyətli yeni materiallarla zənginləşməsinə göstərdiyi töhfə ilə yüksək aktuallıq kəsb edir.

Şübhəsiz, elmin istənilən sahəsində inkişaf aparılan tədqiqat işləri ilə sıx bağlıdır. Belə ki XIX əsrdən etibarən vokal ifaçılığı üzrə dünyada tanınmış bir sıra pedaqoq-tədqiqatçılar öz araşdırmaları ilə bu sənətin ifaçılıq məcrasından genişlənərək peşəkar ənənələrə əsaslanan elm sahəsinə çevrilməsində əvəzedilməz rola malik olmuşdurlar. Həmin dövrün tədqiqatçılarına, onların əsərlərinə Manuel Patrisio Rodriqez Qarsiyanın "Vokal ifaçılıq məktəbi: ifaçılıq sənətinə dair tam traktat (traité complet de l'art du chant)"[1], Françesko Lampertinin "Vokal ifaçılıq sənəti"[2], Covanni Battista Lampertinin "Bel canto texnikası"[3], Matilda Markesinin "Vokal metodu"[4] və digərlərini misal göstərmək olar. Bu nümunələrin müasir dövrümüzdə də vokal sənətinin öyrənilməsi və tədqiqində böyük əhəmiyyəti vardır.

XX əsrdə də vokal sənətinin tədqiqinin nəticəsi kimi bir sıra elmi əsərlər yaranmışdır. Tanınmış vokal müəllimləri olan Lusi Manenin "Bel canto: klassik italyan vokal məktəbinin tədrisi"[5], "Vokal ifaçılıq sənəti: bələdçi"[6] nəzəri-praktiki vəsaitləri, Leonid

---

[1] Гарсиа, М. (сын). «Школа Пения» (traité complet de l'art du chant), части первая и вторая / М.Гарсиа; предисловие перевод, комментарии и примечания., проф. В.А.Багадурова. - Москва: МУЗГИЗ, - 1956. - 125 с.

[2] Lamperti, F. The art of singing // F.Lamperti; revised edition with translation by G.C.Griffith. - New York: G.Schirmer Inc. - 1939. - 62 p.

[3] Lamperti, G.B. The technics of bel canto // G.B.Lamperti, H.Maximillian; translated from the German by Dr.T.Baker. – New York: G.Schirmer Inc., – 1905. – 36 p.

[4] Marchesi, M.C. Vocal method // M.C.Marchesi. - New York: G.Schirmer Inc. - 1986. – 120 p.

[5] Manen, L. Bel Canto: The Teaching of the Classical Italian Song-Schools / L.Manen. – GB: Oxford University Press, - 1983. – 88 p.

[6] Manen, L. The art of singing: a manual // L.Manen. – London: Faber Music Ltd., - 1974. – 46 p., ill., music; 25 cm. + phonodisc (analog: 33 1/3 rpm.; 7 in.)

Borisoviç Dmitriyevin “Vokal metodikasının əsasları”[7], İvan Karpoviç Nazarenkonun “Vokal ifaçılıq sənəti”[8], Riçard Millerin “İngilis, fransız, alman və italyan ifaçılıq texnikaları: Milli tonal seçimlər və onların funksional effektivliklə əlaqəsinə dair tədqiqat”[9], “Milli vokal məktəbləri: ingilis, alman və italyan oxuma texnikaları”[10] və başqa yazılmış iri həcmli tədqiqat işləri belə əsərlərə əsaslı nümunələrdir. Müasir dövrdə isə yayımlanmış iri həcmli araşdırmalara misal olaraq Eleanora Raufovna Simonovanın “Qərb mədəniyyətinin ifaçılıq səsi: erkən liturgik ifaçılıqdan Bel cantoya qədər”[11], Emel Ramiz Şenocakın “Türkiyə vokal ifaçılığının formalaşmasında Avropa vokal texnikasının rolu”[12], Çoşua Vaytnerin “Alman vokal məktəbi: 1848–1965-ci illərə aid alman traktatlarının toplusu”[13], Lyudmila Vladimirovna Antonovanın “İtalyan və milli vokal məktəblərinin ənənələri əsasında musiqi təhsili profilli bakalavrlar üçün vokal ifaçılıq bacarıqlarının formalaşdırılması”[14], Zhao Menin “Çində opera müğənnilərinin

---

[7] Дмитриев, Л.Б. Основы вокальной методики / Л.Б.Дмитриев. – Москва: Музыка, - 1968. - 675 с.

[8] Назаренко, И.К. Искусство пения. 3-е изд., доп. / И.К.Назаренко. – Москва: Музыка, – 1968. – 624 с

[9] Miller, R.F. English, French, German and Italian Techniques of Singing: A Study in National Tonal Preference and How They Relate to Functional Efficiency / R.F.Miller. - New Jersey: The Scarecrow Press, - 1977. - 275 p.

10 Miller, R.F. National schools of singing: English, French, German, and İtalian techniques of singing: [Electronic resource] / URL: file:///C:/Users/acer/Downloads/pdfcoffee.com_national-schools-of-singing-richard-miller-pdf-free.pdf

[11] Симонова, Э.Р Певческий голос в западной культуре: от раннего литургического пения к bel canto: / Автореф. дис. докт. искусств. / - Москва, 2006. - 42 с.

[12] Şenocak, E.R. Türkiyə vokal ifaçılığının formalaşmasında Avropa vokal texnikasının rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2007. – 150 s.

[13] Whitener, J.J. The German School Of Singing: A Compendium Of German Treatises 1848-1965 / Submitted to the faculty of the Jacobs School of Music in partial fulfillment of the requirements for the degree, Doctor of Music Indiana University / - May 2016, 172 p.

[14] Антонова, Л.В. Формирование навыков академического пения у бакалавров профиля "Музыкальное образование" на основе традиций итальянской и отечественной вокальных школ: / Автореф. дис. канд. педагогических наук / - Екатеринбург, – 2020. - 24 с.

hazırlanmasında Avropa məktəblərinin əsaslarını mənimsəmək”[15] dissertasiyalarını, o cümlədən Zong Jun Şen və Peter Simonun həmmüəllif olduğu “Avropa və Çin müğənniləri arasında klassik vokal ifaçılığının öyrənilməsinin müqayisəsi”[16], Roman Vadimoviç Sladkopevetsin “Qərbi Avropa və Rusiyada vokal məktəblərinin yaranması”[17] kitablarını və başqa elmi-əsərləri göstərmək olar.

Bütün bu nümunələrdən aydın olur ki, Avropa vokal məktəblərinin üslub-xüsusiyyətləri, bir-birləri ilə və fərqli məktəblərlə qarşılıqlı əlaqələri daim dünya alimlərinin marağını cəlb etmiş, onların tədqiqat predmetinə çevrilmişdir.

Azərbaycanda da milli akademik vokal sənətinin banisi, mükəmməl ifaçı, pedaqoq, tədqiqatçı kimi tarixdə yer alan SSRİ Xalq artisti, professor Bülbül Avropa məktəblərindən olan italyan vokal məktəbinin ifaçılıq prinsiplərini dərindən mənimsəmiş və ənənəvi Azərbaycan oxuma sənəti ilə uzlaşdırılması üzərində çalışmışdır. Sənətkar mütəmadi olaraq bu mövzuda məqalələr yazmış, məruzələrlə çıxışlar etmişdir. Təqdirəlayiq haldır ki, onun bəzi məqalələ və məruzələrinin mətnləri tarix elmləri namizədi, Azərbaycanın Əməkdar mədəniyyət xadimi Qubad Qasımovun, Əməkdar elm xadimi, sənətşünaslıq elmləri doktoru, professor Əhməd İsazadənin və SSRİ-nin Xalq artisti, professor Şövkət Məmmədovanın birgə əməyinin nəticəsi olaraq 1968-ci ildə “Bülbül: seçilmiş məqalə və məruzələr”[18] adlı məcmuədə, vahid mənbədə toplanmışdır.

Sonralar, Azərbaycan vokal sənətinin inkişafına töhfə verən alimlərdən sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Kamal

---

[15] Чжао, М. Освоение основ европейской вокальной школы в процессе подготовки оперных исполнителей Китая: / Автореф. дис. канд. педагогических наук / - Санкт-Петербург, – 2023. - 24 с.

[16] Shen, Z.J. Comparison of Learning Classical Singing Between European and Chinese Singers / Z.J.Shen, P.Simon. – USA: J.K.Eckert & Co., İnc. – 2011. – 166 p.

[17] Сладкопевец, Р.В. Становление вокальных школ в Западной Европе и в России: Монография / Р.В. Сладкопевец. – Москва: МПГУ, 2015. – 108 с.

[18] Bülbül: Seçilmiş məqalə və məruzələr / tərt., kommentariya və qeydlər Q.A.Qasımov, Ə.İ.İsazadə; red. Ş.H.Məmmədova, Q.A.Qasımov. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, - 1968. - 226 s.

qızı Talıbzadənin[19], Azərbaycan Respublikasının əməkdar müəllimi, sənətşünaslıq üzrə elmlər doktoru, dosent İnara Eldar qızı Məhərrəmovanın[20], pedaqogika üzrə fəlsəfə doktoru Gülarəxanım Əhməd qızı Axundovanın[21] və bu kimi ölkəmizin tanınmış musiqişünaslarının, həmçinin məhz akademik vokal ifaçılıq sənətinin sirlərinə yiyələnmiş tədqiqatçılar olan Azərbaycan və Dağıstan Respublikalarının Xalq artisti, professor Azər Zeynalabdin oğlu Zeynalovun[22], Azərbaycan Respublikasının Əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Məryəm Şaqi qızı Babayevanın[23], sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərgiz Siyavuş qızı Hüseynovanın[24], Azərbaycan Respublikasının Əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlham İslam oğlu Nəzərovun[25] dissertasiya, monoqrafiya, dərs vəsaitini, Nərgiz Siyavuş qızı Hüseynovanın dərs və metodik vəsaitlərini, məqalələrini və başqa elmi araşdırmaları göstərmək olar. Lakin, indiyə qədər aparılan bütün elmi araşdırmalarda milli akademik vokal sənətinin təşəkkülü prosesində Avropa məktəblərinin təsiri ətraflı və sistemli şəkildə tədqiq olunmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan milli vokal sənəti, predmetini isə Avropa məktəblərinin vokal ifaçılığımıza olan təsiri təşkil edir.

---

[19] Talıbzadə, Ü.K. Azərbaycan vokal sənətində musiqi ilə poeziyanın qarşılıqlı əlaqəsi: (1930-1960-cı illər): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / - Bakı, 1995. – 197 s.

[20] Məhərrəmova, İ.E. Azərbaycan operasının janr və musiqi problemləri klassik opera kontekstində: / sənətşünaslıq üzrə elmlər doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 53 s.

[21] Axundova, G.Ə. Azərbaycanda xanəndəlik ənənəsinin və vokal mədəniyyətinin yaranması və inkişafı: monoqrafiya / G.Ə.Axundova. - Bakı: ADPU, - 2009. - 160 s.

[22] Zeynalov, A.Z. Vokal ifaçılığı: Ali məktəblər üçün dərslik / A.Z.Zeynalov. – Bakı: ADMİU, - 2012. - 350 s.

[23] Babayeva, M.Ş. Rəşid Behbudovun ifaçılıq üslubu milli və klassik vokal ənənələrinin sintezi kontekstində: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2010. – 128 s.

[24] Hüseynova N.S. Azərbaycan opera sənətində milli vokal məktəbinin təşəkkülü və inkişafı: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2010. – 30 s.

[25] Nəzərov, İ.İ. Müslüm Maqomayevin Azərbaycan və dünya vokal ifaçılığı sənətində rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2021. – 28 s.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi, Azərbaycan milli vokal sənətinə Avropa vokal məktəblərinin təsirini araşdırmaqdır. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilir:

- Avropanın əsas vokal ifaçılıq məktəblərini araşdırmaq;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropa məktəblərinin Azərbaycan milli vokal sənətinə təsirində multikultural münasibətlərin rolunu üzə çıxarmaq;
- Azərbaycanda akademik vokal sənətinin tədrisini həyata keçirmiş ilk pedaqoqların hansı məktəbin nümayəndələri olduğunu müəyyən etmək;
- İtalyan vokal məktəbinin üslub xüsusiyyətlərini təqdim etmək;
- Azərbaycanda akademik vokal sənətinin formalaşmasında xüsusi rolu olan Şövkət Məmmədova və Bülbülün ifaçılıq üslublarını təspit etmək;
- Fransız və alman vokal məktəblərinin üslub-xüsusiyyətlərini, Azərbaycan milli vokal sənətinə təsirini araşdırmaq və bu təsirlərin ifaçılıq ənənələri üzərində yaratdığı dəyişiklikləri tədqiq etmək;
- Müasir Azərbaycan akademik vokal sənətində yeni təmayül kimi təşəkkül tapan kontratenor səs tembri ilə ifaçılığı araşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyada "Azərbaycan milli vokal sənətinə Avropa məktəblərinin təsiri" mövzusunun araşdırılmasında tarixi, sistemli, deduktiv, analitik və müqayisəli tədqiqat metodlarından istifadə edilmişdir.

Burada tarixi tədqiqat metodu vasitəsilə Avropa vokal məktəbləri və Azərbaycanda akademik vokal ifaçılıq sənətinin təşəkkül tapması araşdırılmışdır. Həmin məktəblərin milli vokal sənətinə olan təsirinin müəyyən edilməsində, hər bir məktəbin təsiri ayrı-ayrılıqda müəyyən edilməklə sistemli, analitik, müqayisəli və deduktiv metodlardan istifadə olunmuşdur.

Tədqiqat işində, müxtəlif not nümunələri üzərində, həm azərbaycanlı, həm də xarici opera müğənnilərinin ifaları, analitik və müqayisəli tədqiqat metodlarının köməyi ilə vokal elminin nəzəriyyəsi əsasında araşdırılmışdır. Bu məqsədlə elektron

resurslarda mövcud olan ifalardan, video və audio yazılardan faydalanılmışdır. Tədqiqat zamanı Azərbaycan, Avropa, Amerika, türk və rus musiqişünaslarının əsərlərinə istinadlar edilmiş, görkəmli alimlərin nəzəri-metodoloji xarakterli fikir və mülahizələrindən yararlanılmışdır.

Tədqiqat işinin ətraflı araşdırılması məqsədilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Üzeyir Hacıbəyli adına BMA, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanaları, habelə virtual olaraq "Konqres Kitabxanası", "İnternet arxivi", "Açıq Kitabxana" və daha bir sıra başqa nüfuzlu rəqəmsal kitabxanaların materiallarına, müxtəlif elektron mənbələrə müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Azərbaycanda akademik vokal sənətinin formalaşmasında multikultural münasibətlər böyük rola malikdir;
- Azərbaycan Dövlət Konservatoriyasının vokal üzrə ilk müəllimləri Manuel Patrisio Rodriqez Qarsiyanın vokal-pedaqoji irsinin davamçılarıdır;
- Azərbaycan akademik vokal sənətinin təşəkkülü dövr baxımından italyan vokal məktəbinin "Verdi və ya declamato melodico" adlandırılan inkişaf mərhələsi ilə paralellik təşkil edir və müvafiq olaraq "Verdi", həmçinin "Bel canto" üslublarına əsaslanır;
- İfa zamanı Şövkət Məmmədova "Bravur bel canto" və "Verdi", Bülbül isə daha çox "Verdi" üslubunu istifadə etmişdir;
- Azərbaycan akademik vokal ifaçılığında ən çox "Bel canto" və "Verdi" üslubları tətbiq edilir;
- Azərbaycan vokal sənətinə fransız və alman məktəblərinin təsiri fundamental olmayıb əsasən bu məktəblərə xas repertuar ilə əlaqədardır;
- Azərbaycan opera ifaçılarının bəstəkarlarımızın vokal yaradıcılığına və xalq mahnılarımıza müraciəti zamanı,

melizmlərin ifasında adətən ənənəvi milli vokal prinsipləri qorunur və bu yanaşma Avropa vokal ifa tərzi ilə uzlaşdırılır;

- "Bel canto" və Azərbaycanın ənənəvi vokal ifaçılığı üslublarında qırtlaq çevikliyinin bənzərliyi Azərbaycan xalq mahnıları və milli bəstəkarlarının əsərlərində melizmlərin ifasında yerli akademik vokal ifaçılarımıza hər iki üslubu sintez etməyə imkan verir;
- XXI əsrdə Azərbaycan akademik vokal sənətinin ifaçılıq baxımından yeni inkişaf istiqaməti İngiltərədən dünyaya yayılmış kontratenor səs tembri ilə ifaçılıqdır;
- Azərbaycanın ilk və yeganə kontratenoru İlham Nəzərov ifaçılığında "Bravur bel canto" və "Verdi" üslublarını uğurla tətbiq edir;
- Kontratenor səs tembri ilə Azərbaycan xalq mahnıları və bəstəkarlarımızın vokal əsərlərinin ifası Azərbaycanda ənənəvi və akademik musiqini yeni çalarlar ilə zənginləşdirir;
- Azərbaycanda "Köhnə italyan məktəbi" və "Yeni italyan məktəbi"nin vokal ifaçılıq üslubları nəzəri cəhətdən sistemli şəkildə tədris edilə bilər.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin əsas elmi yeniliyi, Azərbaycan milli vokal sənətinə Avropa məktəblərinin təsirinin ilk dəfə sistemli və əhatəli şəkildə araşdırılmasıdır. Burada, Avropanın əsas vokal ifaçılıq məktəbləri araşdırılmış və bu məktəblərin Azərbaycan vokal ifaçılığına göstərdiyi spesifik təsiri elmi şəkildə tədqiq edilmişdir.

Tədqiqatın nəticələri əsasında ölkəmizdə Avropa ənənəli vokal sənətinin formalaşmasında multikultural münasibətlərin mühüm rolu müəyyən edilmişdir. Bu yanaşma, Azərbaycan vokal sənətinin inkişafında Avropa ənənələrinin rolunu daha dərindən anlamağa imkan yaradır.

Dissertasiyada, Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərmiş vokal üzrə ilk müəllimlərin, həm XIX əsrin, həm də "Köhnə italyan məktəbi"nin oxuma prinsiplərini mənimsəmiş məşhur tədqiqatçı-pedaqoq M.Qarsiyanın (oğul) vokal irsinin davamçıları olduqları ilk dəfə aşkarlanmış və bu nəticə həm yazılı, həm də sxem şəklində təqdim edilmişdir.

Dissertasiyanın mühüm yeniliklərindən biri də Avropanın əsas vokal məktəbləri arasında önəmli yer tutan italyan vokal məktəbinin ifaçılıq prinsiplərinin ətraflı şəkildə araşdırılması ilə bağlıdır. Burada "Patetik", "Bravur", "Romantik", "Verdi və ya declamato melodico" və "Canto moderno" kimi beş inkişaf mərhəsi əsasında formalaşmış "Köhnə italyan məktəbi" və "Yeni italyan məktəbi"nin ifaçılıq üslubları təhlil olunmuşdur.

Qeyd etmək lazımdır ki, müxtəlif Avropa və rus mənbələrində bu haqda məlumat verilsə də, ölkəmizdə həmin üslublar sistemli və geniş şəkildə ilk dəfə olaraq araşdırılmış, üslubların Azərbaycan vokal sənətinə təsiri müfəssəl tədqiq edilmişdir.

Tədqiqat işində Avropanın digər əsas vokal məktəblərindən olan fransız və alman məktəblərinin ifaçılıq prinsipləri də araşdırılaraq ilk dəfə olaraq Azərbaycan milli vokal sənətinə təsiri təhlil edilmişdir. Eyni zamanda, kontratenor səs tembri ilə ifaçılıq sənətinin Azərbaycan akademik vokal sənətindəki yeri ilk dəfə dissertasiya səviyyəsində müəyyən olunmuşdur.

Tədqiqat işində bir sıra əsərlərin vokal təhlili təqdim edilmiş və musiqi nümunələrinin böyük bir hissəsi ilk dəfə olaraq bu dissertasiyada araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada Avropa vokal məktəblərinin ifaçılıq prinsipləri, onların təsiri ilə formalaşmış Azərbaycan akademik vokal ifaçılığı sənəti və bu istiqamətdə aktuallıq təşkil edən əsas mövzular praktiki-nəzəri baxımdan ətraflı şəkildə araşdırılmışdır.

Tədqiqat işinin nəzəri-praktiki əhəmiyyəti ondadır ki, təqdim olunan materiallar "Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası", "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti", "Azərbaycan Milli Konservatoriyası", "Qarabağ Universiteti" kimi müxtəlif ali təhsil ocaqlarında, musiqi kollecləri və məktəblərində "İxtisas (akademik vokal ifaçılığı)", "Vokal sənətinin inkişafı tarixi", "Vokal ifaçılığının əsasları, "İxtisasın tədrisi metodikası", "Vokal pedaqogikası", "Xüsusi pedaqoji hazırlıq", "Vokal sənətinin müasir istiqamətləri" kimi fənlər üzrə tədris prosesində, mühazirələrdə, seminarlarda, praktik məşğələlərdə istifadə edilə bilər.

Dissertasiya eyni zamanda vokal ifaçılıq sənətinin tarix və nəzəriyyəsini, metodologiyasını, müasir problemlərini araşdıran tədqiqatçılar üçün Azərbaycan dilində dəyərli nəzəri mənbə hesab oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və elmi nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyyə olunan, xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan Azərbaycan, Ukrayna, Tükiyə kimi ölkələrin dövri elmi nəşrlərində, bir sıra elmi-nəzəri konfranslarda məruzə və məqalələr şəklində aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya "Mündəricat", "Giriş", dörd "Fəsil", dörd paraqraf, "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr"dən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, "Giriş" 9 səhifə (16 707 işarə), I fəsil 37 səhifə (67 503 işarə), II fəsil 26 səhifə (47 504 işarə), III fəsil 24 səhifə (45 489 işarə), IV fəsil 24 səhifə (45 372 işarə), "Nəticə" isə 6 səhifədən (10 204 işarə) ibarətdir. Tədqiqat işi ümumilikdə 167 səhifədə şərh olunub. Dissertasiyanın əsas mətn hissəsi isə "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" istisna olmaqla 128 səhifə və 232 779 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqat işinin elmi yeniliyi, qarşıya qoyulan məqsəd və vəzifələri, elmi araşdırma zamanı istifadə edilən metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tətqiqatın nəzəri-praktiki əhəmiyyəti şərh olunur.

Dissertasiyanın I fəsli – **"Azərbaycanda Avropa ənənəli akademik vokal sənətinin təşəkkülü"** – iki paraqrafdan ibarətdir. Birinci paraqraf "**Azərbaycanda akademik vokal sənətinin**

**təşəkkülündə multikultural münasibətlərin rolu”** adlanır. Paraqrafda XIX və XX əsrlərdə Azərbaycanda mövcud olan mədəni mühitə nəzər salınır, Azərbaycana gələn xarici opera truppalarının milli vokal sənətimizin inkişafındakı rolu, Azərbaycan Dövlət Konservatoriyasına dəvət olunan ilk vokal müəllimlərinin hansı məktəblərin nümayəndələri olmaları araşdırılır.

Burada həm də “Köhnə italyan məktəbi”, “Yeni italyan məktəbi”, buna bağlı olaraq geniş zaman çərçivəsində inkişaf etmiş - “Patetik”, “Bravur”, “Romantik”, “Verdi və ya declamato melodico”, “Canto moderno”- mərhələləri əsasında “Patetik bel canto”, “Bravur bel canto”, həmçinin bəstəkar Cüzeppe Verdinin opera yaradıcılığı ilə əlaqəli “Verdi” üslublarının ifaçılıq prinsipləri təhlil olunaraq onların Azərbaycan milli vokal sənətinə təsiri tədqiq edilir.

*“Covanni Battista Rubini, Paulin Viardo, Antonio Tamburini, Erminia Frezzolini, Ancolina Bozio, Enriko Tamberlik, Covanni Mario, Culia Qrisi, Adelin Patti, Kamillo Everardi, Ancelo Mazini”*[26] kimi sənətkarlardan təsirlənən və italyan ifaçılıq texnikasını mənimsəyən rus müğənnilərinin Bakıdakı ifaları, Azərbaycan akademik vokal sənətinin yaranmasına ciddi təkan vermişdir. Belə ki, XIX əsrin sonlarından multikultural mühitdə müxtəlif mədəniyyətlərin qovuşduğu Bakı səhnələrində Fyodor Şalyapin, Nikolay Fiqner, Yevgeniya Mravina, Anton Sekar Rojanski və başqa məşhur opera müğənnilərini görmək mümkün idi.

XX əsrin əvvəllərindən etibarən Azərbaycan incəsənəti ölkədəki multikultural münasibətlərin davamlılığı və inkişafı nəticəsində daha sürətlə irəliləmişdir. 1901-ci ildə Moskva konservatoriyasının məzunu, tanınmış pianoçu A.N.Yermolayevanın təşəbbüsü ilə Rusiya imperator musiqi cəmiyyətinin Bakı şöbəsi təsis edilmiş və bu şöbəyə bilavasitə özü rəhbərlik etmişdir. Sözü gedən şöbədə müxtəlif musiqi alətlərinin tədrisi ilə yanaşı, vokal dərsləri də keçirilirdi. Bütün bu proseslər gələcəkdə Azərbaycanda Avropa ənənəli musiqinin, operanın və akademik vokal sənətinin formalaşması üçün zəmin yaratmışdır. Bu baxımdan ölkəmizdə peşəkar musiqinin əsasını qoyan görkəmli bəstəkar, SSRİ Xalq

[26] History of the Mariinsky opera: [Electronic resource] / Mariinsky theatre. URL: https://www.mariinsky.ru/en/company/opera/history/

artisti, professor Üzeyir Hacıbəylinin fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Onun yazdığı "Leyli və Məcnun" operası özü bir *"multikulturalizm nümunəsidir"*[27]. Bu opera Avropa vokal ənənələrinin təsiri altında Azərbaycan akademik vokal sənətinin yaranmasına ciddi təkan vermişdir. Belə bir şəraitdə akademik üslubda oxuyan azərbaycanlı müğənnilərin yetişməsinə ehtiyac duyulurdu. Odur ki, XX əsrin əvvəllərində Ü.Hacıbəylinın rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasına akademik vokal sənətinin tədrisi məqsədi ilə xarici pedaqoqlar dəvət olunmuşdur. Araşdırma zamanı həmin müəllimlərin "Köhnə italyan məktəbinin" və XIX əsrdən formalaşan "Yeni italyan məktəbinin" ifaçılıq üsullarına bələd olan məşhur tədqiqatçı-pedaqoq Manuel Patrisio Rodriqez Qarsiyanın vokal-pedaqoji irsinin davamçıları olduqları aşkarlanmışdır.

Bütün bu qeyd olunanlar XIX-XX əsrdə ölkəmizdə multikulturalizmin bariz göstəricisi olub, Azərbaycan akademik vokal sənətinin multikultural münasibətlərin davamlılığının nəticəsində təşəkkül tapdığını, həmçinin Azərbaycanda akademik vokal sənətinin yaranmasının "Verdi və ya declamato melodico" mərhələsi ilə paralellik təşkil etdiyini təstiq edir.

**"Şövkət Məmmədovanın vokal ifaçısı kimi formalaşmasında italyan Bel canto məktəbinin təsiri"** adlı ikinci paraqrafda Ş.Məmmədovanın ifaçılıq fəaliyyətinin icmalı təqdim olunur və burada diqqət onun "Bel canto" və "Verdi" üslubuna əsaslanan vokal ifaçılığı təcrübəsinə yönəldilir.

Bu məqsədlə sənətkarın repertuarına diqqət yetirilmiş və ifasında Cakkino Rossininin məşhur "Sevilya bərbəri" operasından Rozinanın "Una voce poco fa" adlı kavatinası, bir sıra xarici müğənnilərlə müqayisələndirilərək vokal ifaçılığı nöqteyi-nəzərindən təhlil edilmişdir.

Təhlil nəticəsində aydın olmuşdur ki, Ş.Məmmədova italyan vokal məktəbinin xüsusiyyətlərini mənimsəyərək "Bravur bel canto" və "Verdi" üslublarını tədbiq etmişdir. O, ifasında rahat və sərbəst oxumağı əsas tutmuş, bədii məzmununun dinləyiciyə çatdırılması

---

[27] Azəri, L. Azərbaycan musiqisi multikulturalizm kontekstində: "Multikulturalizm ili - 2016" / Mədəniyyət. – 2016, - 2 sentyabr. - s. 10.

üçün emosiyaların düzgün nizamlanmasının və inandırıcı olmasının tərəfdarı olmuş, bunu öz pedaqoji fəaliyyətində də təbliğ etmişdir.

Ş.Məmmədovadan sonra XX əsr Azərbaycan akademik vokal ifaçılığında Azərbaycan SSR Xalq artistləri Fatma Muxtarova, Firəngiz Əhmədova, Azərbaycan SSR Əməkdar İncəsənət xadimi Xurşid Qacar, Azərbaycan SSR Əməkdar artistləri Sona Mustafayeva, Sona Aslanova və başqa bir sıra görkəmli qadın müğənnilər meydana çıxmışdır. Bu istedadlı ifaçılar Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış, unudulmaz izlər buraxmışdırlar.

Müasir dövrümüzdə isə SSRİ Xalq artisti Fidan Qasımova, Azərbaycan SSR Xalq artisti Xuraman Qasımova, Azərbaycan Respublikasının Xalq artistləri Qərinə Kərimova, Fidan Hacıyeva, Gülnaz İsmayılova, Dinarə Əliyeva, Əməkdar artistlər Səbinə Əsədova, Fəridə Məmmədova, İnarə Babayeva, Afaq Abbasova, Səidə Şərifəliyeva və başqaları akademik üslubda ifa edərək uğurlar qazanmışdırlar. Onlardan bəziləri Ş.Məmmədovadan dərs almışdırlar. Bu baxımdan XX-XXI əsrin görkəmli qadın müğənniləri Xalq artistləri Fidan Qasımova[28] və Xuraman Qasımovanın[29] adları xüsusi vurğulanmalıdır.

Bu paraqrafda Fidan Qasımovanın ifasında C.Verdinin "Siciliyada ibadət axşamı" operasından "Elenanın bolerosu - Merce, diletta amiche", Ü.Hacıbəylinin "Koroğlu" operasından Nigarın ikinci ariyalarının, X.Qasımovanın ifasında C.Verdinin "Aida" operasından Aidanın "Ritorna vincitor", "Trubadur" operasından Leanoranın "Tacea la notte placida... Di tale amor, che dirsi..." adlı ariyalarının vokal təhlili yer almışdır. Təhlillər göstərir ki, hər iki sənətkar geniş səs diapazonuna malik olmuş, ifa zamanı "Bravur bel canto" və "Verdi" prinsiplərinə mükəmməl şəkildə əməl etmişdir. Onların ifalarında rahatlıq, texniki dəqiqlik və emosional təsir gücü xüsusi vurğulanmışdır.

---

[28] Operamızın ilk qadın sənətkarı: [Elektron resurs] / Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. – 27 fevral, 2018.
URL: http://www.milliarxiv.gov.az/az/operamizin-ilk-qadin-senetkari
[29] Son nəfəsədək sənətdə olmaq // Ekran-efir. – 2015, - 6 mart. - s. 19., ardı s. 22.

Qeyd edək ki, "Elenanın bolerosu" və "Tacea la notte placida...Di tale amor, che dirsi..." ariyaları *"Verdi"* üslubunun yaradıcısı C.Verdiyə aid olsa da "koloraturanın" ifası baxımından "Bravur bel canto" üslubunun prinsiplərinə əsaslanır. "Verdi" ifaçılıq üslubuna əsaslanan "Ritorna Vincitor!" ariyasında müğənnidən tam dayaqlı, güclü və təsirli səs, eləcə də dramatik obrazdakı kəskin dəyişikliklərin inandırıcı şəkildə icrası tələb olunur. Burada ən vacib məqamlardan biri də Nigarın ariyasının vokal təhlilində üzə çıxır. Təhlil zamanı müəyyən edilmişdir ki, bu ariyada da "Verdi Bel canto" üslubundan istifadə olunmuşdur.

Bütün bunlardan belə qənaətə gəlinir ki, Ş.Məmmədova "Bravur bel canto" və "Verdi" üslublarına tam bələd olmuş, pedaqoji fəaliyyətində bu üslubları öz tələbələrinə ötürmüşdür.

Dissertasiyanın II fəsli – **"Azərbaycan akademik vokal sənətinin təşəkkülündə Bülbülün rolu"** – iki paraqrafdan ibarətdir. Bu fəsildə Bülbülün vokal ifaçısı kimi formalaşması, onun pedaqoji və elmi fəaliyyəti, eləcə də ifaçılıq xüsusiyyətlərinə nəzər yetirilmişdir.

**"Bülbülün akademik vokal ifaçısı kimi formalaşmasında italyan məktəbinin rolu"** adlı birinci paraqrafda xanəndə kimi sənətə başlayan müğənninin Avropa ənənəli ifaçılıq üslubuna keçid etməsi, "Bel canto" və "Verdi" metodunu mənimsəməsi öz əksini tapmışdır.

Bülbül 1927-1931 ci illərdə, İtaliyadakı təhsil müddətində öz məqsədinə nail olmaq üçün böyük əzmlə çalışmışdır. Akademik vokal ifaçısı kimi Bakıda aldığı təhsil bu işdə onun çox köməyinə çatmışdır. Qeyd edək ki, italyan pedaqoqlar üçün Bülbülü yetişdirmək heç də asan deyildi. İtalyan pedaqoqların qarşısında, italyan vokal məktəbinin prinsipləri əsasında oxuyan, Şərq-Qərb oxuma üslublarının sintezini həyata keçirə biləcək peşəkar müğənni yetişdirilməsi və buna bağlı olaraq xanəndəlik məharətinin də qorunub saxlanılması kimi iki mühüm məsələ dururdu. Onlar isə həmin vaxta qədər xanəndə səsini eşitməmişdilər. Bu məsuliyyətli iş Bülbülün ən çox dərs aldığı müəllimi Rafael Qrani tərəfindən uğurla yerinə yetirilmişdir. Deməli, R.Qrani, xanəndəni akademik vokal

ifaçısı kimi təkminləşdirmiş ilk italyan müəllim kimi də qiymətləndirilə bilər.

Bülbül İtaliyada olarkən Avropa akademik və ənənəvi Azərbaycan vokal ifaçılığının uzlaşdırılması məsələsi üzərində çalışırdı. Bunun üçün Bülbül, öz müəllimi professor R.Qrani ilə birgə Ü.Hacıbəylinin əsərlərinin təhlillərini aparmışdır. Bülbüllə həmfikir olan müəllimi də Azərbaycan dilinin fonetik və akustik xüsusiyyətlərinin italyan dilinə çox bənzəməsini və səsin formalaşdırılması üçün əlverişli olmasını təstiqləmişdir. "*Bu isə vokal sahəsində ilk elmi tədqiqat və elmi – metodiki iş olmuşdur*"[30].

Daha sonra vətənə qayıdan Bülbül akademik vokal sənətinin inkişafı və konservatoriyada təhsil prinsiplərinin təkminləşdirilməsi üzərində çalışmış, Avropa vokal metodlarını yerli şərtlərə uyğunlaşdıraraq milli akademik vokal təhsilinin əsaslarını qoymuş, həmçinin tədris prosesində istifadə üçün yeni praktik məşğələlər yaratmışdır. Qeyd edək ki, mövcud nəzəri vəsaitlər və video materialardan istifadə edərək dissertasiyamızda bəzi məşğələləri həm nəzəri baxımdan izah etmiş, həm də not nümunələri şəklində də təqdim etmişik. Sənətkarın irəli sürdüyü təklif və mülahizələr Azərbaycan vokal təhsilinin inkişafında əvəzsiz töhfə olmuş və bu sahənin gələcək nəsillərinə istiqamət vermişdir.

**"Bülbülün vokal ifaçılığının xüsusiyyətləri"** adlı ikinci paraqrafda sənətkarın ifasında bir sıra əsərlərin vokal təhlili aparılmışdır. Bu araşdırma Bülbülün ifasında mövcud olan texniki və bədii xüsusiyyətlərin dərindən tədqiqinə əsaslanır.

İlk olaraq C.Puççininin "Toska" operasından Kavaradossinin və F.Çileanın "L'Arlesiana" operasından Federikonun ariyalarının vokal təhlilləri təqdim olunmuşdur. Hər iki bəstəkarın opera yaradıcılığında *"Verdi"* üslubunun dominantlığı, əsərlərin ifasında müəyyən edilən texniki və bədii xüsusiyyətlər aydın görünür.

Burada həmçinin Ü.Hacıbəylinin "Koroğlu" operasından "Koroğlunun ariyası" əsasında SSRİ Xalq artistləri Bülbül, Lütfiyar İmanov, Azərbaycanın Xalq artistləri Həsən Enami, Samir Cəfərov

---

[30] Bülbül: Bülbül: Seçilmiş məqalə və məruzələr / tərt., kommentariya və qeydlər Q.A.Qasımov, Ə.İ.İsazadə; red. Ş.H.Məmmədova, Q.A.Qasımov. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, - 1968. - s. 151

və Əməkdar artist Ramil Qasımovun ifalarının müqayisəli təhlili əsasında "Verdi" və ənənəvi Azərbaycan vokal ifaçılığına xas oxuma üsullarının uzlaşdırılması, xüsusən də melizmlərin oxunmasında ənənəvi Azərbaycan, həmçinin "Bravur bel canto" üsullarının vəhdətli tətbiqi müəyyən edilir.

Beləliklə, təhlillər Bülbülün ifasında səslənən əsərləri daha dərindən anlamağa, onun texniki ifa imkanlarının mümkün qədər açıqlanmasına, əsərin düzgün səsləndirilə bilinməsi üçün lazım olan tələblərin, düzgün texnikanın izah edilməsinə xidmət edir.

Dissertasiyanın III fəsli – **"Azərbaycan milli vokal sənətinə fransız və alman məktəblərinin təsiri"** – adlanır. Fəsildə, fransız və alman vokal məktəblərinin Azərbaycan akademik vokal sənətindəki yeri, həmin məktəblərin fərdi, ortaq və fərqli ifaçılıq prinsipləri, bu prinsiplərin milli akademik vokal sənətinə inteqrasiyası, məktəblərin tətbiqi ətraflı şəkildə araşdırılmışdır.

Fransız və alman məktəblərinin Azərbaycan milli vokal sənətinə təsiri ilk növbədə operaların tamaşaya qoyulması ilə əlaqədar olmuşdur. Ölkəmizdə italyan operalarından sonra ən çox səhnələşdirilən əsərlər arasında fransız və alman operaları xüsusi yer tutur.

Hələ XX əsrin əvvəllərindən Azərbaycanın teatr səhnəsində Jorj Bizenin "Karmen", Jak Offenbaxın "Hofmanın nağılları", "Mirvari axtaranlar", Jül Massnenin "Tais", "Verter", Şarl Qunonun "Faust", "Romeo və Cülyetta", Kamil Sen-Sansın "Samson və Dalila", Leo Delibin "Lakme", Fromontal Jak Halevinin "Kardinal qızı", Rixard Vaqnerin "Loenqrin", "Tanqeyzer", , Cakomo Meyerberin "Quqenotlar", Volfqanq Amadey Motsartın "Sehrli fleyta", Ludviq Van Bethovenin "Fidelio" və daha bir sıra fransız, həmçinin alman opera tamaşaları göstərilmişdir.

Bu operalardan "Lakme" və "Karmen" isə həm də Azərbaycan dilinə tərcümə edilmişdir. Əbdürrəhim bəy Haqverdiyev tərəfindən 1923-cü ildə tərcümə edilən "Lakme" operası, 1924-cü ildə tamaşaya qoyulmuşdur. Lakmenin partiyasını Şövkət xanım Məmmədova böyük ustalıqla ifa etmişdir. "Karmen" operasının librettosu isə Nigar Rəfibəyli tərəfindən tərcümə olmuşdur. Operanın tərcümə variantı 1945-ci il, mart ayının 22 və 25-i tamaşaçılara təqdim

olunmuşdur. Karmen obrazı Azərbaycan SSR Xalq artisti Fatma Muxtarova tərəfindən canlandırılmışdır. Təbii ki, bu əsərlərin Azərbaycan dilində səhnələşdirilməsi opera sənətinin inkişafı tarixində mühüm hadisələrdəndir.

Azərbaycan teatr səhnəsində bir çox fransız operaları dəfələrlə orijinal dildə tamaşaya qoyulmuşdur. Qeyd edək ki, əsərləri orijinal dildə ifa etmək üçün Azərbaycan müğənniləri fransız və alman vokal ifaçılığı ənənələrinə yüksək səviyyədə bələd olmalı idilər. Bu isə əsərlərin daha yaxşı təqdimatı baxımından mühüm əhəmiyyət kəsb edir.

*"İngilis, fransız, alman və italyan – məktəbləri, Avropanın dörd əsas akademik vokal məktəbləridir. Bu məktəblər arasından italyan vokal məktəbi həm Avropa həm də Asiyada ən yüksək təsirediciliyə malikdir"*[31].

Apardığımız araşdırmalardan aydın olur ki, fransız və alman vokal məktəbləri italyan vokal məktəbinin təsiri ilə formalaşmışdır. Bu məktəblərin hər birinin öz spesifik oxuma tərzi, eyni zamanda bir sıra ortaq ifaçılıq xüsusiyyətləri vardır. Belə ki, "*Vokal məktəblərinin texniki fərqlilikləri nitq və dil ilə bağlıdır".*[32] Bu nöqteyi-nəzərdən, tədqiqat işində dil ünsürünün əhəmiyyəti diqqət mərkəzində saxlanılmışdır. Araşdırmada, xüsusilə tələffüzün, vurğunun, rezonatorların düzgün istifadəsi, fransız məktəbinə bağlı olaraq "əlaqə – la liaison" və "birləşmə – enchaînement" fonetik hadisələrinin nəzərə alınması, alman vokal məktəbinə xas "artikulyasiya"nın gözlənilməsi və vokal ifaçıları üçün önəmli olan digər məsələlər geniş şəkildə təhlil edilmişdir. "*Doğru nəfəs, açıq və*

---

[31] Miller, R.F. National schools of singing: English, German, and İtalian techniques of singing: [Electronic resource] /
URL: file:///C:/Users/acer/Downloads/pdfcoffee.com_national-schools-of-singing-richard-miller-pdf-free.pdf

[32] Şenocak, E. Vokal eğitimde Avrupa vokal tekniğinin geleneksel türk müziğine uygulanması: // Yüzüncü Yıl Üniversitesi "Genel Müzik Eğitiminde Geleneksel Müziklerimiz" Ulusal Müzik Eğitimi Sempozyumu. – Van: - 04-05-06 Mayıs, - 2005, - s. 295-296.
URL:https://www.yyu.edu.tr/images/files/IUlusalM%C3%BCzikEgitimiSempozyumu/Belgeler/EmelSenocak.pdf

*rahat qırtlaq, yaxşı artikulyasiya, səsi ön bölgəyə (maskaya) almaq"*[33] isə həmin məktəblərin əsas ortaq ifaçılıq prinsipləridir.

Göstərilən məsələlər, fransız və alman vokal ifaçılığının spesifik tələblərinə uyğun olaraq, müğənninin ifasında doğru ifadəni və dəqiqliyi təmin etmək üçün vacib prinsiplər kimi ortaya çıxır.

Tədqiqat işinin bu fəslində fransız və alman məktəblərinin Azərbaycan milli vokal sənətinə təsirinin araşdırılması məqsədilə 7 azərbaycanlı və 23 xarici opera müğənnilərinin ifaları əsasında L.Delibin "Lakme" operasından "L'Air des clochettes və ya Bell Song" kimi tanınan "Où va le jeune Indoue", J.Bizenin "Karmen" operasından "Habanera" kimi məşhurlaşan "L'amour est un oiseau rebelle", V.A.Motsartın "Sehrli fleyta" operasından "Gecə kraliçasının – Der Hölle Rache" və F.Leharın "Cuditta" operettasından, "Cudittanın - Meine Lippen sie küssen so heiß" ariyalarının, həmçinin F.Şubertin "Lachen und Weinen" mahnısının vokal təhlilləri verilmişdir.

Təhlillər fransız və alman vokal məktəblərində "Bel canto" və "Verdi" üslublarının tətbiqini, həmin məktəblərin spesifik ifaçılıq prinsiplərini, bu prinsiplərin Azərbaycan akademik vokal ifaçısı üçün uyğunluğunu anlamağa kömək edir,

Azərbaycan dilinin zənginliyi və bununla yanaşı, fransız, alman, Azərbaycan akademik vokal məktəblərinin hər birinin italyan məktəbinin təsiri ilə formalaşmasından irəli gələn ortaq məqamlar ifaçılarımız üçün həmin məktəblərə xas olan əsərlərin səsləndirilməsinə texniki baxımdan əlverişli şərait yaradır. Beləliklə, aydın olur ki, ifa zamanı azərbaycanlı opera müğənniləri fransız, alman, həm də italyan vokal məktəblərinin oxuma üsullarından istifadə edirlər.

Apardığımız araşdırmalar bir daha belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan akademik vokal sənəti italyan məktəbinin

---

[33] Şenocak, E. Vokal eğitimde Avrupa vokal tekniğinin geleneksel türk müziğine uygulanması: // Yüzüncü Yıl Üniversitesi "Genel Müzik Eğitiminde Geleneksel Müziklerimiz" Ulusal Müzik Eğitimi Sempozyumu. – Van: - 04-05-06 Mayıs, - 2005, - s. 297.
URL:https://www.yyu.edu.tr/images/files/IUlusalM%C3%BCzikEgitimiSempozyumu/Belgeler/EmelSenocak.pdf

təsiri ilə formalaşmış, fransız və alman vokal məktəblərinin milli vokal sənətimizə olan təsiri isə fundamental xarakter daşımamışdır Fransız və alman məktəblərinin milli vokal sənətimizə təsiri həmin məktəblərə xas repertuara əlaqədar olmuşdur. Bu yanaşma vokal sənətindəki beynəlxalq təsirlərin milli ifaçılıq ənənələrinin inkişafındakı rolu barədə daha dərindən təhlil aparmağa imkan verir.

Dissertasiyanın IV fəsli – **"Müasir dövr Azərbaycan akademik vokal sənətində yeni təmayül – kontratenor səs tembri ilə ifaçılıq"** – adlanır. Bu fəsildə XXI əsrdə Azərbaycanda mədəni mühitə, akademik vokal sənətinin inkişafına nəzər salınır və müasir dövrün yeni vokal ifaçılıq təmayülü olan kontratenor səs tembri ilə ifaçılıq sənəti tədqiq edilir.

XXI əsrdə Azərbaycan akademik vokal ifaçılığı tarixində mühüm bir yenilik özünəməxsus xüsusiyyətləri ilə fərqlənən kontratenor səs tembri ilə ifaçılığa müraciətlə bağlı olmuşdur. Bu fəsildə kontratenor səs tembri ilə ifaçılığın tarixi, prinsipləri və Azərbaycanda təşəkkül tapması araşdırılmışdır.

İngiltərədə əsası qoyulmuş kontratenor səs tembri ilə ifaçılığın Azərbaycan musiqi tarixinə daxil olması Əməkdar artist, prezident mükafatçısı, beynəlxalq mükafatlar laureatı, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlham Nəzərovun fəaliyyəti ilə bağlıdır.

O, peşəkar yaradıcılığa bariton səs tembri ilə başlamışdır, kontratenor səs tembri ilə ifa etməyi isə İtaliyadakı təhsili ilə əlaqədar olmuşdur. 2010-2013-cü illərdə "Ozimo İncəsənət Akademiyası"nda təhsil alan İ.Nəzərov 2011-ci ildən kontratenor kimi ifa etməyə başlamışdır. O, Andreas Şöll, Franko Facoli, Filip Jaruski kimi dünya şöhrətli kontratenorlardan dərs almışdır.

İ.Nəzərov həm ifaçılıq, həm də pedaqoji fəaliyyətlə məşğuldur. O, ölkəmizin bir sıra tanınmış musiqi tədris ocaqlarının aparıcı pedaqoqlarındandır və müxtəlif tembrlərə malik tələbələrə dərs verməkdədir. Onun tələbələrindən Tofiq Zeynalov "Ü.Hacıbəyli adına BMA"-nın kontratenor səs tembrinə malik olan ilk məzunudur. Düşünmək olar ki, zamanla kontratenor ifaçılığının yeni nümayəndələri də Azərbaycanın səhnəsində öz yerlərini alacaqlar.

İ.Nəzərov Azərbaycanın müasir vokal musiqisi müstəvisində həm bariton, həm də kontratenor səs ilə ifa edən ilk və yeganə opera

müğənnisidir. Müasir Azərbaycan vokal ifaçılıq məktəbinin nümayəndəsi kimi o, yaradıcılıq ampluası və onun çoxcəhətliliyi ilə seçilir.

Respublikamızda və 70-ə yaxın xarici ölkələrdə keçirilən beynəlxalq festivalların iştirakçısı olmuş İ.Nəzərov, dünyanın məşhur opera teatrlarında və konsert salonlarında çıxış etməkdədir. İ.Nəzərov dünya şöhrətli musiqiçilər - Rikkardo Muti, Koko York, Coss Stoun, Filip Jaruski, Andrea Boçelli, Franko Facoli və başqaları ilə eyni səhnəni paylaşmışdır.

Onun yaradıcılığı azərbaycanlı tədqiqatçıların diqqətindən kənarda qalmamışdır. Müğənninin ifaçılıq imkanlarını müəyyən etmək üçün sənətşünaslıq elmləri doktorları Abbasqulu Nəcəfzadə[34], Aytac Rəhimova[35], sənətşünaslıq üzrə fəlsəfə doktorları Osman Özəl[36], Yulizana Kuxmazova[37], Vüqar Hümbətov[38] və başqalarının araşdırmalarına, o cümlədən fəlsəfə elmləri doktoru Gülnaz Abdullazadənin tərtib etdiyi "İlham Nəzərov: sərhədsiz səs..." adlı kitaba istinad edilmiş, Avropa və Azərbaycan bəstəkarlarından bəzi ariyalar, mahnı, romans və xalq mahnısı əsasında vokal təhlillər aparılmışdır.

Burada italyan bəstəkar Stefano Muskaritolo tərəfindən İ.Nəzərovun səs tembri nəzərə alınaraq bəstələnən iki əsər də təhlil

---

[34] Nəcəfzadə, A.İ. Gülnaz Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin İlham Nəzərovun təfsirində ifaçılıq xüsusiyyətləri // - Bakı: Filologiya və sənətşünaslıq, - 2022. №2, - s. 283-290.

[35] Rəhimova A.E. Rəna Qədimovanın "İnsan" monoloqunun vokal ifaçılıq xüsusiyyətləri İlham Nəzərovun təfsirində // - Bakı: Sənət akademiyası, - 2021, № 2 (14), - s.66-78.

[36] Озель, O.N. Проявление элементов Азербайджанской музыки в технике исполнения Ильхама Назарова как контртенора // –Kyiv: Bulletin of Kyiv National University of Culture and Arts. Series in Musical Art, – 2021, vol. 4, №1, – с. 152-166. https://doi.org/10.31866/2616-7581.4.1.2021.233348

[37] Kuxmazova Y.Ş. Azərbaycan vokal ifaçılığı kontekstində İlham Nəzərov yaradıcılığının novatorluq xüsusiyyətlərinə dair // – Bakı: Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, – 2020, №1 (8), – s.61-69.

[38] Humbatov, V.B. Scientific Work of Ilham Nazarov, a Prominent Representative of the Modern Vocal Performance School of Azerbaijan // –Kyiv: Bulletin of Kyiv National University of Culture and Arts. Series in Musical Art, – 2020, vol. 3, №2, – p. 132-145. https://doi.org/10.31866/2616-7581.3.2.2020.219158

edilmişdir. “Luna, Lussuria e Velocita”nın təhlilində müğənninin yaradıcılığında “Futurizm” cərəyanının təsiri ilə formalaşan əsərin ifa maneraları diqqət çəkir. Bu cərəyan üçün ənənəvi qaydalardan imtina etmək, yeni formalar, ifadə vasitələrindən istifadə əsas xarakterik cəhətlər kimi qiymətləndirilə bilər.

S.Muskaritolonun “Pero’ c’amore no si po’ vedere” adlı digər əsəri isə öz forması, sturukturu və ifaçılıq prinsipinə görə orijinallığı ilə seçilir. Əsərin müşayiəti olduqca maraqlıdır. Belə ki, solist və orkestr üçün bəstələnən bu əsərin müşayətində həm Avropa, həm də tar, kamança, nağara, balaban kimi milli musiqi alətlərindən istifadə olunmuşdur. Bəstəkar burada muğam ifaçılığından da yararlanmışdır.

İ.Nəzərovun yaradıcılığının ən maraqlı xüsusiyyətlərindən biri də Azərbaycan bəstəkarlarının romanslalarını, mahnılarını, o cümlədən xalq mahnılarımızı kontratenor səs tembri ilə ifa etməsidir. Bu isə milli vokal sənətimizin tarixində yenilik və əhəmiyyətli tədqiqat mövzusudur.

Qeyd edək ki, bununla bağlı olaraq fəsildə Ü.Hacıbəylinin “Sevgili canan” romans-qəzəlinin, eləcə də “Küçələrə su səpmişəm” xalq mahnısının tərəfimizdən aparılan vokal təhlili təqdim edilmişdir.

Bu fəsildə ümumilikdə müasir dövrdə Azərbaycan vokal sənətinə kontratenor səs tembri ilə ifaçılığın inteqrasiyası, onun ölkəmizdəki tətbiqçisi kimi İ.Nəzərovun ifaçılığının “Bravur bel canto” və “Verdi” üslublarına söykəndiyi müəyyən olunmuş, eyni zamanda, fransız və alman vokal məktəblərinin oxuma üsullarını da mənimsədiyi araşdırma nəticələrində təspit edilmişdir. Bu sənətin İngiltərədə ortaya çıxması həm də milli vokal ifaçılığımıza ingilis məktəbinin təsiri kimi də qiymətləndirilə bilər.

Dissertasiyanın yekunu olaraq aşağıdakı əsaslı **nəticələr** əldə edilmişdir:

- Azərbaycan akademik vokal sənətinin təşəkkülü və inkişafı XIX-XX əsrlərdə ölkəmizdəki multikultural münasibətlərin davamlılığının nəticəsidir. Bu dövrdə ölkəmizdəki multikultural mühit Azərbaycana Avropa ənənəli musiqinin inteqrasiyasına zəmin yaratmışdır;
- Azərbaycan Dövlət Konservatoriyasında akademik vokal sənətini tədris edən ilk müəllimlər, “Köhnə italyan məktəbinin” və

XIX əsr vokal ifaçılığının ənənələrini mənimsəmiş tədqiqatçı-pedaqoq Manuel Patrisio Rodriqes Qarsiyanın vokal-pedaqoji irsinin davamçıları olmuşdur;

- Azərbaycan akademik vokal sənətinin təşəkkülü, italyan vokal məktəbinin "*Verdi və ya declamato melodico*" inkişaf mərhələsi ilə paralellik təşkil edir. Aparılan sistematik araşdırmalar və müvafiq vokal təhlillər nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan akademik vokal sənəti struktur və ifaçılıq xüsusiyyətləri baxımından, xüsusilə *"Verdi"* və *"Bel canto"* üslublarının təsiri altında formalaşmışdır.

- Ölkəmizin ilk qadın akademik vokal ifaçısı, lirik-koloratur səs tembrinə malik olan Ş.Məmmədova *"Verdi"* və *koloratura* ifaçılığına bağlı olaraq *"Bravur bel canto"*, Azərbaycan milli akademik vokal sənətinin banisi Bülbül isə lirik-dramatik səs tembrinə malik akademik vokal ifaçısı kimi *"Bel canto"* üslubuna bələd olmuş, əsasən *"Verdi"* üslubunu istifadə etmişdir;

- Araşdırmalar onu göstərir ki, Azərbaycan akademik vokal ifaçıları oxuyarkən əsasən *"Bel canto"* və *"Verdi"* üslublarını tətbiq edirlər. Bu nəticə, yerli akademik vokal ifaçılığının inkişafında Avropa ənənələrinin mühüm rol oynadığının və Azərbaycan akademik vokal sənətinin təməlini formalaşdırdığının göstəricisidir:

- *"Bel canto"*nun *koloraturaya*, Azərbaycanın ənənəvi vokal sənətinin isə müxtəlif gəzişmələrə, zəngulələrə bağlı qırtlaq çevikliyi və hərəkətliliyi bənzərlik təşkil etdiyindən Azərbaycan xalq mahnıları, həmçinin bəstəkarlarımızın bir çox əsərlərində melizmlərin ifası zamanı Azərbaycanın akademik vokal ifaçılarına hər iki üslubu sintez etməyə imkan yaradır;

- Azərbaycan vokal sənətinə fransız və alman məktəblərinin təsiri fundamental xarakter daşımayıb, daha çox bu məktəblərə xas olan repertuarla əlaqəlidir. Kontekst çərçivəsində azərbaycanlı opera müğənniləri ifa zamanı həm fransız və alman vokal məktəblərinin prinisplərindən, həm də italyan məktəbinin əsas üsullarından istifadə edirlər. Bu, Azərbaycan vokal sənətinin müxtəlif Avropa vokal ifaçılıq ənənələri ilə zənginləşməsini təmin edir;

- İngiltərədən dünyaya yayılan kontratenor səs tembri ilə ifaçılığın Azərbaycan milli vokal sənətinə inteqrasiyası, XXI əsrdə

Azərbaycan akademik vokal sənətinin yeni inkişaf istiqamətini əks etdirir. Bu inteqrasiya, Azərbaycan akademik vokal ifaçılığının müasir dünya musiqi təmayülləri axınında öz yerini almasına təkan verir. *Kontratenor* səs tembri ilə oxuma, Azərbaycan vokal sənətinin ifaçılıq diapazonunu genişləndirərək, həm yerli, həm də beynəlxalq musiqi mədəniyyətləri arasında qarşılıqlı əlaqə və harmoniyanın yaranmasının əhəmiyyətli bir göstəricisidir;

- Təhlillər göstərir ki, yaradıcılığına bariton səs tembri ilə başlayan, Azərbaycanın ilk *kontratenoru* olan İ.Nəzərov, öz ifaçılığında *"Bravur bel canto"* və *"Verdi"* üslublarını tətbiq edir. İlham Nəzərovun *kontratenor* kimi bu üslubları mənimsəməsi, Azərbaycan akademik vokal sənətinin inkişafında nəzərə çarpan daha bir irəliləyişə işarədir;
- *Kontratenor* səs tembri ilə Azərbaycan xalq mahnıları və bəstəkarlarımızın vokal əsərlərinin təqdimatı ölkəmizin ənənəvi vokal ifaçılığına yeni müstəvidən yanaşmadır. Bu yanaşma, Azərbaycanda ənənəvi və akademik musiqini fərqli çalarlarla zənginləşdirir;
- Azərbaycanda "Köhnə italyan məktəbi" və "Yeni italyan məktəbi"nin vokal ifaçılıq üslubları nəzəri cəhətdən sistemli şəkildə tədris oluna bilər. Araşdırmalarımız göstərir ki, bu tədris tələbələrə hər bir vokal ifaçılıq üslubunu ayrı-ayrılıqda anlamağa, dövrlərə və bəstəkarların yaradıcılığına görə əsərlərin ifasında lazımi üslubların düzgün seçiminə imkan yaradır. Nəticə etibarilə, bu tədris metodunun tətbiqi, tələbələrin vokal ifaçılığında yüksək peşəkarlıq səviyyəsinə çatmasına şərait yaratmış olur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Piriyev, R.V. İlk qadın vokalçı-Şövkət Məmmədova // - Bakı: Konservatoriya, - 2017. №4 (38), - s. 38-43.
2. Piriyev, R.V. Vokal sənəti tədrisinin bəzi problemləri: yeniyetməlik dövründə ifaçılıq // Musiqişünaslığın aktual problemləri mövzusunda respublika elmi konfransının materialları, - Bakı: Mütərcim, 2019. - s. 331-337.

3. Piriyev, R.V. Avropa akademik vokal ifaçılıq məktəbinin İlham Nəzərovun kontratenor kimi formalaşmasında rolu // - Naxçıvan: Axtarışlar, - 2020. C.13, №2 (36), - s. 159-169.
4. Piriyev, R.V. Avrupa şan yüksekokulu'nun verimliliğindeki ulusal şan sanatına bilgisayar teknolojilerinin etkisi // VI Uluslararası Müzik ve Dans Kongresi, 30-31 oktyabr, 2020, - Alanya, - s. 376-382
5. Piriyev, R.V. Firəngiz Əlizadənin "Nəsimi – passion" əsərində Nəsiminin partiyasının vokal təhlilinə dair // Bəstəkar və zaman respublika elmi konfransının materialları və elmi məqalələr toplusu. – Bakı: 20-21 aprel, 2021, - s. 128-140.
6. Piriyev, R.V. Bülbülün ifasında Kavaradossinin "E lucevan le stelle" adlı ariyasının vokal təhlili // - Bakı: Sənət akademiyası, - 2021. №3 (15), - s. 85-93.
7. Piriyev, R.V. Features of Futurism performance on the example of the works "Luna, lussuria e velocita" in Ilkham Nazarov's interpretation // - Kyiv: Bulletin of Kyiv National University of Culture and Arts. Musical Art Series", - 2021. Vol 4, № 2, - p.209-218. https://doi.org/10.31866/2616-7581.4.2.2021.245798
8. Piriyev, R.V. Fidan Hacıyevanın səsləndirməsində Karmenin "Habanera" nömrəsinin vokal təhlili və fransız ifaçılıq üslubunun təzahürü // - Bakı: ADMİU-nun Elmi Əsərləri, - 2022. № 31, - s.102-109.
9. Piriyev, R.V. Şövkət Məmmədovanın ifasında Rozinanın kavatinasının müqayisəli vokal təhlili və Belkantonun tətbiqinə dair (C.Rossini: "Una voce poco fa" "Sevilya Bərbəri" operasından) // - Bakı: Filologiya və Sənətşünaslıq, - 2022. № 1, - s. 243-250.
10. Piriyev, R.V. F.Leharın "Cuditta" operettasından "Cudittanın ariyası" üzrə bəzi Azərbaycan və xarici opera müğənnilərinin təfsirində alman ifaçılıq üslubuna bir nəzər // - Bakı: Elmi xəbərlər, Humanitar elmlər seriyası, - 2022. № 2, - s. 23-30.
11. Piriyev, R.V. Azərbaycan vokal sənətinin təşəkkülündə ispan oxuma məktəbinin rolu // - Bakı: Filologiya və Sənətşünaslıq, - 2022. № 2, - s. 336-343.

12. Piriyev, R.V. Azərbaycan opera-vokal sənətinin formalaşmasında multikultural münasibətlərin rolu // Ənənəvi və klassik dəyərlər multikultural mühitdə. Beynəlxalq fənlərarası elmi-praktiki konfransın materialları, - Bakı: "İmza" nəşrlər evi, - 6-7 dekabr, 2022. - s. 266-272.





28

Dissertasiyanın müdafiəsi 26 may 2025-ci il tarixində saat 13⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.04.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 39830 işarə

Tiraj: 100 nüsxə